**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**CABBAR HAFİZ OĞLU MUSAYEV**

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ RESPUBLİKALARI ARASINDA İQTİSADİ ƏLAQƏLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün**
**təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nazim Hidayət oğlu Əhmədov**
iqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Əli Xudu oğlu Nuriyev**
AMEA-nın müxbir üzvü, iqtisad üzrə elmlər doktoru, professor

**Rəşad Akif oğlu Səfərov**
iqtisad üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** AMEA-nın İqtisadiyyat İnstitutunun "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsi

Müdafiə "_22__" "__06________" 2013-cü il saat $11^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının əsasında yaradılmış B/D.01.211 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "___________2013-cü ildə göndərilmişdir.

**B/D. 01.211 Dissertasiya Şurasının**
**elmi katibi:** **E.A.ŞIXƏLİYEV**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini əldə etdikdən sonra dünyada gedən proseslərə getdikcə daha çox qatılmaqdadır. Belə ki, indi Azərbaycanın qarşısında öz təbii sərvətlərindən milli mənafeyə uyğun istifadə etmək, müstəqil daxili və xarici iqtisadi siyasət yeritmək və dünya təsərrüfat sisteminə inteqrasiya üçün geniş imkanlar açılmışdır. Bu gün Azərbaycan dünya iqtisadiyyatının qloballaşması və beynəlxalq əmək bölgüsünün tələblərini nəzərə almaqla açıq iqtisadi siyasət yürüdən, qapılarını beynəlxalq aləmə daha çox açan, dünya ölkələri və beynəlxalq təşkilatlarla fəal, iqtisadi, siyasi, mədəni, elmi-texniki və s. sahələrdə əlaqələr yaradan bir ölkəyə çevrilmişdir. Ölkəmizin beynəlxalq iqtisadi münasibətlər sisteminə daxil olması, yaxın və uzaq xarici dövlətlərlə qarşılıqlı faydalı iqtisadi əlaqələrin yaradılması və inkişafı müasir iqtisadiyyatımızın mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının indiki sürətli sosial-iqtisadi inkişafı möhkəm ictimai-siyasi, sosial-iqtisadi sabitliyin mövcud olması, aparılan ardıcıl iqtisadi islahatlar yolu ilə iqtisadiyyatın prioritet sahələrinin sürətli inkişafı, cəmiyyətin bütün həyatında əldə edilmiş nailiyyətlərin dönməz xarakter alması, ölkənin XXI əsrdə dünyanın inkişaf etmiş dövlətləri sırasına daxil olması üçün möhkəm və səmərəli xarici iqtisadi əlaqələrin, o cümlədən xarici ticarət əlaqələrinin qurulması ilə səciyyələnir.

Hazırda Azərbaycanın dünyada analoqu olmayan sürətli sosial-iqtisadi inkişafının təməli ümummilli lider Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasət xətti ilə qoyulmuşdur. Bu gün həmin siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi islahatlar ölkəmizin uzunmüddətli davamlı inkişafını təmin edir. "Əsrin müqaviləsi" çərçivəsində reallaşdırılan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, Qədim İpək yolu kimi transmilli, regional və qlobal enerji və infrastruktur layihələri ölkəmizi regional lider dövlətə çevirmişdir. Nəticədə Azərbaycanın xarici ticarət əlaqələri xeyli genişlənmiş, dünyanın inkişaf etmiş ölkələri ilə xarici ticarət dövriyyəsi dəfələrlə artmış, onun dinamikası və strukturunda müsbət dəyişikliklər baş vermişdir. Xarici ticarətin liberallaşdırılması sahəsində həyata keçirilən islahatlar təsərrüfat subyektlərinin beynəlxalq ticarət əlaqələrinin qurulması sahəsində təşəbbüslərinə geniş imkanlar açmışdır. Ölkə başçısının bu dövrdə xarici ticarətin liberallaşdırılması və bu sahədə süni maneələrin aradan qaldırılmasına dair Fərmanları xarici tərəfdaşlarla ölkənin idxal-ixrac əməliyyatları strukturunun tənzimlənməsi, təkmilləşdirilməsi və xarici ticarətdə müsbət saldonun əldə olunmasında mühüm rol oynamışdır.

Yuxarıda qeyd olunanlar öz növbəsində respublikanın ixrac potensialının artırılmasına, dünya bazarında rəqabətə davamlı məhsullar istehsal edən müəssisələrin inkişafına, milli standartlar sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına, investisiyaların və xarici ticarət dövriyyəsinin artırılması və coğrafiyasının genişləndirilməsinə gətirib çıxarmışdır.

Ümumiyyətlə, müstəqilliyimizdən keçən 21 il ərzində ölkəmizin xarici iqtisadi əlaqələri yüksələn xətlə inkişaf etmişdir. Hazırda respublikamız 150-dən çox ölkə ilə xarici iqtisadi əlaqəyə girmişdir. Azərbaycanın xarici iqtisadi əlaqələr sahəsində əsas strateji partnyorlarından biri güclü elmi-istehsalat potensialına, inkişaf etmiş sənaye, kənd təsərrüfatı və nəqliyyat infrastrukturuna malik qardaş Türkiyə Respublikasıdır. Azərbaycanın beynəlxalq əlaqələr sistemində Türkiyənin xüsusi yeri vardır. Belə ki, beynəlxalq aləmdə ilk dəfə olaraq Azərbaycanın müstəqilliyini tanıyan Türkiyə gənc respublikanın diplomatik nümayəndəlik funksiyalarının geniş miqyasda yerinə yetirilməsinə, rəsmi və qeyri-rəsmi beynəlxalq təşkilatlarda təmsil edilməsinə böyük əhəmiyyət verərək bu işdə ona yardımçı oldu. Türkiyə bu proses daxilində Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və beynəlxalq aləmdə adını bir daha təsdiq etdirilməsi istiqamətində də böyük işlər görmüş və görməkdədir.

Türkiyə öz iqtisadi potensialına və xarici iqtisadi əlaqələr sahəsində əldə etdiyi nailiyyətlərə görə dünya ölkələri arasında xüsusi olaraq diqqəti cəlb edir. Ölkələrimizin iqtisadi-coğrafi mövqeyi bütün xarici iqtisadi əlaqələrin formalarına və onların inkişafına təsir edir. Bax elə buna əsaslanaraq Azərbaycan-Türkiyə iqtisadi münasibətləri timsalında xarici iqtisadi əlaqələr strategiyasının öyrənilməsinin əhəmiyyətini müəyyən etmək olar. İki ölkə arasında prezidentlər səviyyəsində keçirilən görüşlər və xüsusilə 2012-ci il sentyabr ayının 10-11-də Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Türkiyə Cumhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan arasında Qəbələ şəhərində keçirilən görüşlər və burada 10 sənədin imzalanması bir daha onu göstərir ki, ölkələrimiz arasında iqtisadi əlaqələr getdikcə genişlənir. Bu isə elmi-tədqiqat işinin yeni müstəvidə işlənməsini tələb edir ki, bu da işin aktuallığını daha da artırır.

**Problemin öyrənilmə səviyyəsi**. Dövlətlər arasında xarici iqtisadi əlaqələr və onun təkmilləşdirilməsinə dair bir çox elmi araşdırmalar aparılmışdır. Bir çox xarici ölkələrin tanınmış iqtisadçı alimləri və klassiklərindən A.Smit, D.Rikardo, S.Mill, F.List, E.Xekşer, L.İ.Abalkin, V.E.Rıbalkin, K.A.Semyonov, İ.P.Kaminski, B.Buqlay, R.İ.Xasbulatov, E.Avdokuşin və digərləri xarici iqtisadi əlaqələr sahəsində tədqiqatlar aparmışlar.

Xarici iqtisadi əlaqələrin araşdırılması sahəsində Azərbaycan iqtisadçılarının da mühüm rolu vardır. Bu sahədə tədqiqat aparan alimlərdən A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, Ə.X.Nuriyev, Ş.H.Hacıyev, Ə.İ.Bayramov, R.T.Həsənov, Ə.Q.Əlirzayev, N.H.Əhmədov, A.Ş.Şəkərəliyev, G.Ə.Gənciyev, M.Q.Məmmədov, M.İ.Barxudarov, A.Ə.Əliyev, İ.Ə.Feyzullabəyli, S.H.Ağayev və başqa iqtisadçıların xarici iqtisadi əlaqələrin araşdırılması sahəsində böyük xidmətləri olmuş və nəticədə yeni əsrlər meydana gəlmişdir. Lakin Azərbaycan-Türkiyə iqtisadi əlaqələri sahəsində və xüsusilə məsələyə yeni aspektdə yanaşılması sahəsində hələ az əsərlər yazıldığından bu tədqiqat işinin yazılması xüsusi əhəmiyyətə malikdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin əsas məqsədi Türkiyənin təbii və iqtisadi potensialını öyrənmək, Azərbaycan və Türkiyə Respublikaları arasında iqtisadi əlaqələrin müasir vəziyyətini kompleks təhlil edərək qiymətləndirməklə ölkələrimiz arasında iqtisadi əlaqələrin məqsədəuyğunluğunu və zəruriliyini əsaslandırmaq, perspektivdə səmərəli əməkdaşlıq imkanlarını və yollarını müəyyən etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- xarici iqtisadi əlaqələrin ölkələrin inkişafındakı rolunun öyrənilməsi və hazırda bu sahədə mövcud olan nəzəri-metodoloji yanaşmaların sistemləşdirilməsi;
- iki ölkə arasında iqtisadi münasibətlərin mövcud vəziyyətinə və perspektivlərinə təsir edən amillərin müəyyən edilməsi;
- Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin müasir vəziyyətinin qiymətləndirilməsi;
- ölkələrin iqtisadiyyatının inkişafında nəqliyyat sektorunun rolunun öyrənilməsi;
- müasir informasiya texnologiyalarından istifadənin xarici iqtisadi əlaqələrin inkişafındakı rolunun müəyyənləşdirilməsi;
- Azərbaycan və Türkiyə arasında iqtisadi münasibətlərin, ticarət, qarşılıqlı investisiya qoyuluşları, müştərək müəssisələrin yaradılması, elmi-texniki əməkdaşlıq, beynəlxalq təşkilatlar və irimiqyaslı layihələrdə əməkdaşlıq sahələrində münasibətlərin müasir vəziyyətinin kompleks təhlili;
- ölkələr arasında iqtisadi münasibətlərin əsas istiqamətlərinin müəyyən edilməsi;
- yaxın perspektivdə Azərbaycan-Türkiyə arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün potensial imkanların aşkar edilməsi;

- iki ölkə arasında xarici iqtisadi əlaqələrin bütün formaları çərçivəsində əməkdaşlığın təkmilləşdirilməsinə dair konkret təklif və tövsiyyələrin hazırlanması və s.

**Tədqiqatın obyekti**. Azərbaycan Respublikası ilə Türkiyə arasında xarici iqtisadi əlaqələr tədqiqatın obyektini təşkil edir.

**Tədqiqatın predmeti**. Müasir şəraitdə Azərbaycanın xarici iqtisadi əlaqələrinin formalaşması, inkişafı, onun strukturu və metodlarının öyrənilməsi tədqiqatın predmetini təşkil edir. Habelə ölkəmizin Türkiyə ilə iqtisadi əlaqələrinin müasir vəziyyətinin öyrənilməsi, Azərbaycan-Türkiyə arasında iqtisadi əlaqələrin və bu əlaqələr kontekstində xarici iqtisadi fəaliyyətin, xüsusilə xarici ticarətin təkmilləşdirilməsinin nəzəri-praktiki məsələlərinin kompleks şəkildə öyrənilməsi də tədqiqatın predmetinə aid edilə bilər.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. Tədqiqat işinin nəzəri-metodoloji əsasını iqtisadçı alimlərin xarici iqtisadi əlaqələr haqqında müddəaları, dünya və ölkə alimlərinin elmi əsərlərində tədqiq olunmuş fundamental konsepsiyalar, xarici iqtisadi əlaqələrin müxtəlif formalarının inkişafı probleminə həsr edilmiş elmi tədqiqatlar, iqtisadi əlaqələrin inkişaf etdirilməsində dünya ölkələrinin təcrübəsi, Azərbaycanın iqtisadçı alimlərinin xarici iqtisadi əlaqələrlə bağlı nəzəri və praktiki fikirləri və s. təşkil edir. Dissertasiya işinin yazılmasında Azərbaycan Respublikası Milli Məclisinin müvafiq sahədə qəbul etdiyi qanunlardan, Prezidentin sərəncam və fərmanlarından, Nazirlər Kabinetinin qərar və sərəncamlarından, Azərbaycan və Türkiyə respublikaları arasında imzalanmış dövlətlərarası, hökumətlərarası və müəssisələrarası müqavilə və sazişlərdən, iqtisadi əməkdaşlıq üzrə Azərbaycan – Türkiyə birgə Hökumətlərarası Komissiyanın iclaslarının protokollarından, habelə digər normativ-hüquqi sənədlərdən istifadə olunmuşdur.

Tədqiqat işinin yerinə yetirilməsində sistemli təhlil, sintez, ümumiləşdirmə, müqayisə, statistik qruplaşdırma və digər iqtisadi üsullardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası**. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Türkiyə Dövlət Statistika Komitəsi, BMT-nin, BVF-nın və digər nüfuzlu beynəlxalq təşkilatların Azərbaycan və Türkiyə iqtisadiyyatına dair nəşrləri, İqtisadi İnkişaf Nazirliyinin, Dövlət Gömrük Komitəsinin materialları, Hökumətlərarası Komissiyaları iclaslarının protokolları, Türkiyə ilə iqtisadi əlaqələri olan Azərbaycan müəssisələri və eləcə də Azərbaycanla ticarət-iqtisadi əlaqələr qurmuş Türkiyə müəssisələrinin materialları.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işinin hazırlanmasında aşağıdakı

elmi yeniliklər müəyyən edilmişdir:

- müasir dövrdə xarici iqtisadi əlaqələrin nəzəri-metodoloji mahiyyəti elmi əsaslarla açılmış, onun inkişafına təsir göstərən əsas amillər müəyyən edilmişdir;

- ölkənin xarici iqtisadi əlaqələrinin inkişaf meylləri geniş təhlil edilmiş, bazar transformasiyalarında yaranmış mənfi cəhətlər üzə çıxarılmış və bu mənfi meyllərin aradan qaldırılması üçün konkret təkliflər irəli sürülmüşdür;

- ilk dəfə olaraq Azərbaycan-Türkiyə iqtisadi əlaqələrində səbəb-nəticə asılılıqları nəzərə alınmaqla geniş tədqiqata cəlb edilmişdir;

- Azərbaycan-Türkiyə iqtisadi əlaqələrində bir sıra formalar üzrə, o cümlədən ticarət, investisiyalar, birgə müəssisələrin yaradılması, elmi-texniki əməkdaşlıq və əmək ehtiyatlarının miqrasiyası sahəsində geniş təhlil aparılmış, mövcud problemlər müəyyən edilmişdir;

- iki ölkə arasında iqtisadi əlaqələrin inkişafında müasir informasiya texnologiyalarından istifadənin zəruriliyi müəyyənləşdirilmişdir;

- Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin müxtəli sahələrində əsas problemlər aşkara çıxarılmış, onun həlli yolları təhlil edilmiş və iqtisadi əlaqələrin təkmilləşdirilməsi üçün konkret təkliflər paketi işlənib hazırlanmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti**. Dissertasiya işində Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin imkan və perspektivləri haqqında irəli sürülən müddəalar konkret sahələrdə müştərək müəssisələrin yaradılması imkanları, konkret malların idxalı və ixracına dair, həmçinin iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına yardım edə biləcək digər tədbirlər və təkliflər praktiki əhəmiyyətə malikdir. Tədqiqatın nəticələri xarici iqtisadi əlaqələrinin təkmilləşdirilməsi ilə bağlı qanun, proqram, layihələr hazırlanması prosesində, elmi-tədqiqat işlərində, həmçinin ali məktəblərdə müvafiq ixtisas kurslarının tədrisində istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi**. Tədqiqat işinin əsas müddəfları 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasında keçirilən "Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və Azərbaycan modeli" adlı beynəlxalq elmi-praktiki konfransında, 2011-ci ildə Sank-Peterburq Dövlət Universitetində keçirilən "İqtisadiyyatın inkişafında prioritet məsələlərin reallaşdırılmasında maliyyə-kredit sisteminin rolu" adlı beynəlxalq elmi konfransda, 2011-ci ilin may ayında Türkiyənin Ankara şəhərində keçirilən "Nizami'den Yunus Emre'ye, Kamal Atatürk'ten Haydar Aliyev'e uzanan sevgi və barış yolu" adlı simpoziumda, 2012-ci ildə Moskvada keçirilən "İqtisadiyyatda sistemli

təhlil – 2012" adlı elmi-praktiki konfransda məruzə edilmiş və bəyənilmişdir. Tədqiqatçı əsas müddəaları məruzə şəklində Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmiş və xarici iqtisadi əlaqələrlə bağlı plan və proqnozların hazırlanmasında istifadə olunması üçün qəbul edilmişdir (arayış No:01/185,tarix 27.03.2013). Dissertasiya işinin əsas mahiyyətini əks etdirən və elmi cəhətdən əsaslandırılmış tövsiyələr dərc edilmiş 8 məqalə və 4 tezisdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin həcmi 142 səhifədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti göstərilir, işin elmi yeniliyi, elmi-nəzəri və praktiki əhəmiyyəti və aprobasiyası şərh edilir, nəşr olunmuş elmi əsərlər, həmçinin işin strukturu haqqında ümumiləşdirilmiş məlumatlar verilir.

Dissertasiya işinin birinci fəsli **"Xarici iqtisadi əlaqələrin nəzəri-metodoloji əsasları"** adlanır. Burada qeyd edilir ki, xarici iqtisadi əlaqələr xüsusi fəaliyyət sferası olub, beynəlxalq əmək bölgüsünə (BƏB) əsaslanır. Beynəlxalq əmək bölgüsündə iştirakın inkişafı həm ölkə daxili iqtisadi problemlərin həlli, həm də ölkələr arasında normal münasibətlərin yaradılması üçün mühüm vasitədir. Bu baxımdan beynəlxalq əmək bölgüsünün mahiyyətini, yaranma səbəblərini və şərtlərini, onun əhəmiyyətini daha dərindən öyrənmək üçün ölkə daxilində əmək bölgüsünün yaranması prosesi araşdırılmalıdır. Məlumdur ki, ölkə daxilində ayrıca götürülmüş istənilən müəssisə cəmiyyət üçün zəruri olan bütün malları istehsal etmək gücündə deyil. Hər bir müəssisə müəyyən növ məhsulların istehsalı üzrə ixtisaslaşmalıdır. Təsərrüfat subyektlərinin ixtisaslaşması isə istehsal edilmiş məhsulların mübadiləsini zəruri edir. Belə qarşılıqlı münasibətlərin nəticəsi olaraq müəssisələrarası əmək bölgüsü meydana gəlir. Qeyd etmək lazımdır ki, bəzi iqtisadi ədəbiyyatlarda əmək bölgüsünün formaları müxtəlif cür qruplaşdırılır. Əmək bölgüsünə beynəlxalq sfera baxımından yanaşdıqda iqtisadçılar müəssisədaxili, ölkədaxili və ölkələrarası əmək bölgüsünü fərqləndirilər.[1] Ölkələrarası və ya beynəlxalq əmək bölgüsünün ölkə daxilindəki əmək bölgüsündən əsas fərqi ondan ibarətdir ki, beynəlxalq səviyyədə tərəfdaş rolunda ayrı-ayrı ölkələrin müəssisələri çıxış edir. Bir tərəfdən beynəlxalq əmək bölgüsündə iştirak edən müəssisələrin əksəriyyəti öz ölkələrindəki şəxsi və istehlak tələbatından çox məhsul istehsal edir. Digər tərəfdən artıq məhsulları istehsal etmədikləri və ya az miqdarda istehsal etdikləri məhsullara mübadilə edirlər.

Ölkədaxili əmək bölgüsündə olduğu kimi beynəlxalq əmək bölgüsünün də əsas xarakterik xüsusiyyəti istehsalın ixtisaslaşması və məhsulun mübadiləsidir. Məhz beynəlxalq əmək bölgüsünün mahiyyəti və onun bu xarakterik xüsusiyyəti ilə bağlıdır. Beləliklə, beynəlxalq əmək bölgüsü ictimai əmək bölgüsünün davamı olub ayrı-ayrı ölkələrin mübadilə etdikləri müəyyən növ məhsul istehsalında ixtisaslaşmasıdır. Araşdırmalar

[1]Ахмедова А.И., Мухсинова Л.Х., Азизов Р.Н., Гаджиева С.М. Международная торговля Азербайджанской Республики. Баку: Сада, 2007, с. 27

göstərir ki, ölkələrin beynəlxalq əmək bölgüsündə səmərəli iştirak etməsi üçün müəyyən şərtlər – təbii ehtiyatlar, əlverişli iqlim şəraiti və s. olmalıdır. Ancaq ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakının səbəbləri ilə şərtlərini fərqləndirmək lazımdır. Ölkələri beynəlxalq əmək bölgüsündə iştirak etməyə məcbur edən səbəb ümumi stimuldur. Şərt isə ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakı zamanı vaxta qənaət etməsini təmin edən ayrı-ayrı konkret şəraitdir. Beynəlxalq əmək bölgüsündə iştirak etməyi şərtləndirən amillər səbəbdən fərqli olaraq müxtəlif ölkələrdən və hadisələrdən asılı olaraq dəyişir.

Fikrimizcə, beynəlxalq əmək bölgüsünü müəyyən edən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- təbii ehtiyatların mövcudluğu;
- təbii iqlim şəraiti;
- demoqrafik potensial və ölkədə ixtisaslı kadrların olması;
- ölkənin coğrafi vəziyyəti;
- elmi-texniki inqilab

Ayrı-ayrı ölkələrdə bu amillərin hamısının olması vacib deyil. Çünki ölkələr beynəlxalq əmək bölgüsündə iştirak etmək üçün bu amillərin birindən və ya bir neçəsindən istifadə edirlər. Məsələn, Azərbaycanda təbii ehtiyatlar və təbii iqlim şəraiti beynəlxalq əmək bölgüsündə iştirak etmək üçün mühüm rol oynayır. Yaponiyada isə bu amillər mövcud olmasa da ixtisaslı işçi qüvvəsi və elmi-texniki nailiyyətlər hesabına bu ölkə beynəlxalq əmək bölgüsündə geniş iştirak edir.

Ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakı və ölkələr arasında xarici iqtisadi əlaqələr getdikcə inkişaf edir. Xarici iqtisadi münasibətlər ayrı-ayrı ölkələrin iqtisadiyyatları arasındakı təsərrüfat əlaqələri olbu, uzunmüddətli tarixi proseslər nəticəsində formalaşmışdır.

Ölkələr arasındakı iqtisadi əlaqələrə siyasi, milli, etnik, sosial amillər də təsir göstərir. Xarici iqtisadi əlaqələrin əsas bölmələrindən biri xarici ticarətdir. Əmtəə və xidmətlərin xarici ticarəti beynəlxalq iqtisadi əlaqələr sistemində mühüm yer tutur. Mütəxəssislərin hesablamalarına görə müasir dövrdə beynəlxalq iqtisadi əlaqələrin 80%i xarici ticarətin payına düşür.[1]

Dissertasiya işində xarici ticarətin hələ qədim dövrlərdən mövcud olması və inkişaf edərək bugünkü səviyyəyə gəlib çatması haqda geniş məlumat verilir. Qeyd edilir ki, xarici iqtisadi əlaqələr ilk dəfə olaraq klassik siyasi iqtisadın nümayəndələri tərəfindən daha dolğun tədqiq edilmişdir.

---

[1]Ахмедова А.И., Гулиев Ю., Рализаде М. Развитие транспортной системи мира. Баку: Елм, 2006, с. 61

Bu fəsildə klassik siyasi iqtisadın banilərindən bir olan A.Smit tərəfindən əsası qoyulmuş "mütləq üstünlük nəzəriyyəsi", D.Rikardonun "müqayisəli üstünlük nəzəriyyəsi", "əmək-dəyər nəzəriyyəsi", "istehsal amilləri" nəzəriyyəsi, "yeni məhsul istehsalı" nəzəriyyəsi və digər nəzəriyyələr geniş tədqiq edilir və deyilən fikirlərə münasibət bildirilir.

Dissertasiya işinin ikinci fəsli **"Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin müasir vəziyyəti, inkişaf meylləri və nəqliyyat"** adlanır. Burada ilkin olaraq qeyd edilir ki, Azərbaycan iqtisadiyyatının keçmiş ittifaqdan miras qalmış strukturu, bəzi hallarda özünü biruzə verən dövlət idarəçiliyi sisteminin səmərəsizliyi, respublikanın müharibə vəziyyətində olması, dünyanın "nəhəng" dövlətlərinin Azərbaycanla əlaqədar maraqlarının kəskin toqquşması və s. ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunmasına, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına bir çox hallarda əngəllər yaradır.

Xarici iqtisadi əlaqələrin intensivləşdirilməsi məqsədilə birinci mərhələdə bu sistemin təşkilati hüquqi bazasının ilkin variantı formalaşdırılmış, 20 sentyabr 1994-cü ildə dünyanın iri transmilli neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalanmışdır. Bu müqavilə bütün dünyada Azərbaycanın müstəqil dövlət olduğunu bəyan etməklə yanaşı beynəlxalq iqtisadi güc mərkəzlərinin nəzər diqqətinin ölkəyə cəlb edilməsi, respublikanın dünya iqtisadiyyatına inteqrasiyası yönümündə çox güclü təsirə malik bir təkan idi.

Xarici iqtisadi əlaqələr sahəsində aparılan struktur islahatları özünün yeni mərhələsinə 2001-ci ilin birinci yarısında İqtisadi İnkişaf Nazirliyinin yaradılması ilə qədəm qoydu. Son vaxtlarda dünya ölkələri arasında iqtisadi inteqrasiya güclənmişdir. Tədqiqat işində qeyd edilir ki, artıq hər bir ölkənin iqtisadiyyatının inkişafı milli sərhədlərdən çıxaraq dünya iqtisadiyyatına qovuşur. Sənaye cəhətdən inkişaf etmiş ölkələr iqtisadi cəhətdən zəif inkişaf etmiş, lakin böyük xammal ehtiyatına və ucuz işçi qüvvəsinə malik olan ölkələrdə öz müəssisələrinin filiallarının, müştərək müəssisələr yaratmaqla həmin ölkələrdə iqtisadiyyatın inkişafını sürətləndirirlər. Dünya iqtisadiyyatında transmilli şirkətlərin sayı və xüsusi çəkisi artır. Sənaye cəhətdən inkişaf etmiş ölkələr dünya bazarına əsasən hazır məhsul, qabaqcıl texnologiya, daha çox elm tutumlu məhsullar çıxarırlar.

Hazırda rəqabət qabiliyyətli məhsullar istehsal etmək, dünya bazarına daxil olmaq, orada mövqe tutub möhkəmlənmək üçün uzun müddətli və gərgin çalışmalar tələb olunur. Ölkələr arasında bu sahədə rəqabət mübarizəsi isə getdikcə güclənir. Buna görə hesab edirik ki, Azərbaycan öz iqtisadiyyatının bugünkü vəziyyətindən çıxış edərək dünya iqtisadiyyatına səmərəli inteqrasiyaya imkan verən bütün potensialını

müəyyənləşdirməli və bundan lazımi səviyyədə faydalanmalıdır. Onu da xüsusilə vurğulamaq yerinə düşər ki, ölkəmizin belə potensialı kifayət qədər böyükdür və burada ilk növbədə onun geosiyasi və coğrafi mövqeyi, təbii ehtiyatlarının zənginliyi, böyük elmi-texniki və kadr potensialı, habelə ölkəmizə üstünlük gətirən digər şərtlər nəzərə alınmalı, bu imkanlar dünya iqtisadiyyatına səmərəli inteqrasiya üçün səfərbər edilməlidir.

Qeyd etmək lazımdır ki, Azərbaycan çox əlverişli coğrafi mövqeyə, təbii iqlim şəraitinə, zəngin mineral-xammal resurslarına malikdir. Qərb ilə Şərqin, Şimal bazarları ilə Cənub bazarlarının, inkişaf etmiş Avropa ilə sürətlə inkişaf etməkdə olan Asiyanın sərhədlərini birləşdirən Azərbaycanın coğrafi mövqeyi ona beynəlxalq nəqliyyat və ticarət kommunikasiyalarının mühüm keçid məntəqəsi olmağa imkan verir Bu, ölkənin indiki inkişaf mərhələsində Azərbaycana beynəlxalq iqtisadi münasibətlərdə rəqabət üstünlüyü verən və fəal inteqrasiyanı təmin edə biləcək başlıca amildir. Belə bir coğrafi mövqe Azərbaycana əsrlərlə ticarət dəhlizi Böyük İpək Yolu rolunda çıxış etməyə imkan vermişdir. Azərbaycanın regional inteqrasiya bloklarında iştirakı da onun dünya təsərrüfat əlaqələrinə qoşulmasını səmərəli etmək üçün mühüm əhəmiyyət kəsb edir. Burada qeyd edilir ki, respublikamız müxtəlif regional və beynəlxalq iqtisadi blokların: MDB, GÜAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), İslam Konfransı Təşkilatı, Beynəlxalq Valyuta Fondu və Dünya Bankının üzvüdür. Eyni zamanda ÜTT-na, həmçinin Avropa İttifaqına üzv olmaq məqsədilə ölkəmiz müəyyən əməli tədbirlər həyata keçirir.

İşdə beynəlxalq inteqrasiya zamanı ölkəmizə rəqabət üstünlükləri təmin edə biləcək ikinci amil Azərbaycanın təbii iqlim şəraiti və təbii resursların zənginliyi olduğu qeyd edilir. Əlverişli coğrafi relyefə, münbit torpaq sahələrinə, uzun sahil xəttinə, gözəl yaylaqlara, geniş meşələrə, gözəl hava şəraitinə malik olması ölkəmizdə kənd təsərrüfatı istehsalının ən müxtəlif sahələrinin səmərəli təşkilinə, turizmin inkişafına geniş imkanlar açır. Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olması hamıya məlumdur. Onların kəşf olunmuş ehtiyatları: neft 4,6 mlrd. ton, təbii qaz – 4 trln. kub. m təşkil edir. Ölkəmizin həmin resursları dövriyyəyə cəlb etmək üçün daxili imkanları məhdud olduğundan bu işə xarici investisiyaların cəlb edilməsinə ehtiyac vardır. Dövlət mürəkkəb quruluşu olan və çətin şəraitdə yerləşən yataqlarda neft və qaz hasilatının ən səmərəli texnologiyasını tətbiq edən xarici şirkətləri cəlb etməklə, neft, qaz və neft məhsulları ticarətini genişləndirir. Neft ixracından Azərbaycanın əldə edəcəyi valyuta gəlirləri ölkə iqtisadiyyatının digər sahələrinin, xüsusilə idxalı əvəz edən və ixrac yönlü sahələrin dirçəldilməsinə yönəldilməlidir. İndiki şəraitdə Azərbaycan dünya bazarlarına yalnız enerji daşıyıcıları və xammal

ixracatçısı kimi çıxmağa məcburdursa da, gələcəkdə beynəlxalq əmək bölgüsündə yalnız bu rolla kifayətlənmək olmaz. Həm də bu zaman neft ixracatçısı olan ölkələrin həm qabaqcıl və həm də "acı" təcrübəsini dərindən öyrənməklə müvafiq nəticələr çıxarmaq məqsədəuyğundur. Bunu nəzərə alaraq ölkəmiz neftdən gələn gəlirin bir hissəsini qeyri-neft sektorunun inkişafına yönəldir ki, nəticədə son illərdə qeyri-neft sektorunda ciddi artım tempi qeydə alınır və bu sahədə sürətli artım baş verir.

Dissertasiya işində beynəlxalq təşkilatlarla münasibətlərə də toxunulur və qeyd edilir ki, beynəlxalq təşkilatlarla münasibətlərin düzgün qurulması inteqrasiyanın vacib şərtidir. Bu zaman həmin təşkilatların yalnız diktəedici mövqe tutması ölkənin milli maraqlarına zərbə vura bilər. Müxtəlif beynəlxalq təşkilatlara, xüsusən Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmağa hazırlaşarkən belə üzvülükdən ölkənin qazancını və itirəcəyini hesablamaq, milli maraqlara uyğun qərar qəbul etmək vacibdir. Hesab edirik ki, üzvülüklə bağlı məsələlər dəfələrlə götürqoy edilməli, ölkəmizin əldə edəcəyi qazanc müəyyənləşdirilməli və tələsikliyə yol verilməməlidir.

Nəhayət, respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası yekunda aşağıdakı bir sıra nailiyyətlərin əldə olunmasına xidmət etməlidir:

- dünya iqtisadi sistemində respublikanın mövqeyinin möhkəmlənməsi, fəaliyyətinin genişlənməsi və verdiyi məhsulun xüsusi çəkisinin artması;
- istehsalın idarə olunmasının beynəlxalq standartlara uyğun şəkildə təkmilləşdirilməsi;
- dünyadakı ETT-nin üstünlüklərindən istifadə olunaraq elmi-texniki kadr potensialının inkişafı istiqamətində dövlət tərəfindən yardım edilməsi;
- makroiqtisadi səviyyə ilə beynəlxalq inkişaf səviyyəsi arasında bazar uyğunluğu meylinə nail olunması;
- iş qüvvəsinin və kapitalın beynəlxalq miqrasiyası prosesinin tənzimlənməsi və s.

Azərbaycanın beynəlxalq ticarətinin inkişafında irəliləyişlər baş verir və onun coğrafiyası ciddi şəkildə dəyişir. Əgər müstəqilliyin ilk illərində idxal və ixracın böyük hissəsi Türkiyə, İran və MDB ölkələri ilə aparılırdısa, sonrakı illərdə inkişaf etmiş ölkələr üstünlük təşkil edir. Ölkəmiz hazırda dünyanın 150-dən çox ölkəsi ilə ticarət əlaqələrinə girmişdir.

Azərbaycanın müstəqillik illərində xarici ticarəitində baş vermiş dəyişiklikləri müəyyən etmək üçün aşağıdakı cədvələ diqqət yetirək:

**Cədvəl 1**

**Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi (1991-2010)**

| İllər | Xarici ticarətin ümumi həcmi, Mln. ABŞ dolları | O cümlədən | | Saldo |
|---|---|---|---|---|
| | | İdxal | İxrac | |
| 1991 | 4002,2 | 1881,2 | 2121,0 | 239,8 |
| 1992 | 2423,8 | 939,8 | 1484,0 | 544,2 |
| 1993 | 1353,5 | 628,8 | 724,7 | 95,9 |
| 1994 | 1430,6 | 777,9 | 652,7 | -125,2 |
| 1995 | 1304,9 | 667,7 | 637,2 | -30,5 |
| 1996 | 1591,9 | 960,6 | 631,3 | -329,3 |
| 1997 | 1575,7 | 794,4 | 781,3 | -13,1 |
| 1998 | 1682,6 | 1076,5 | 606,1 | -470,4 |
| 1999 | 1965,6 | 1035,9 | 929,7 | -106,2 |
| 2000 | 2917,3 | 1172,1 | 1745,2 | 573,1 |
| 2001 | 3745,3 | 1431,1 | 2314,2 | 883,1 |
| 2002 | 3832,9 | 1665,5 | 2167,4 | 501,9 |
| 2003 | 5216,6 | 2626,2 | 2590,4 | -35,8 |
| 2004 | 7131,4 | 3515,9 | 3615,5 | 99,6 |
| 2005 | 8558,4 | 4211,2 | 4347,2 | 136,0 |
| 2006 | 11638,9 | 5266,7 | 6372,2 | 1105,5 |
| 2007 | 11771,7 | 5713,5 | 6058,2 | 344,7 |
| 2008 | 54926,0 | 7170,0 | 47756,0 | 40586,0 |
| 2009 | 20824,5 | 6123,1 | 14701,4 | 8578,3 |
| 2010 | 27960,8 | 6600,6 | 21360,2 | 14759,6 |

**Qeyd:** Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl məlumatlarının təhlili göstərir ki, 1993-cü ildən Azərbaycanın xarici ticarətinin həcmi kiçik istisnalarla ümumilikdə sabit templə artaraq 2001-ci ildə 3745 mln. ABŞ dolları olmuşdur ki, bu da 1993-cü ilin müvafiq göstəricisindən (1354 mln ABŞ dolları) 2391 mln. ABŞ dolları çoxdur. Xarici ticarət dövriyyəsinin artımının orta illik tempi təqribən 3,5% olmuşdur ki, bu da əsasən idxalın hesabına əldə edilmişdir.

2000-2010-cu illərdə ticarət əlaqələrinin fəallığı artaraq 2003-cü il istisna olmaqla müsbət ticarət balansına nail olunmuşdur. Bu əsasən respublikanın xarici bazara çıxarılan neft-qaz, kimya, maşınqayırma və metal emalı, yüngül və yeyinti sənayesi sahələrinin məhsullarının hesabına olmuşdur. Cədvəl üzrə aparılan araşdırmalardan məlum olur ki, əgər 1991-ci ildə xarici ticarət dövriyyəsinin həcmində idxalın payı 47%, ixracın payı isə 53% təşkil edərək müsbət saldo əldə edilmişdir. 1994-cü ildən başlayaraq ticarət balansında mənfi saldo yaranmış və bu meyl 1999-cu ilədək davam etmişdir. Yalnız 2000-ci ildən sonra ölkənin ticarət balansında müsbət dəyişikliklər baş vermiş və nəticədə həmin ildə ixracın payı artaraq 60%, idxalınkı isə 40% olmuşdur. 2000-ci ildən sonrakı

dövrlərdə ixracın həcmi daha sürətlə artmağa başlamışdır. Belə ki, əgər 2000-ci ildə bütövlükdə ticarət dövriyyəsində ixracın həcmi cəmi 60% təşkil edirdisə, son 10 il ərzində bu rəqəm daha sürətlə artaraq 2010-cu ildə 76% olmuşdur. Son 10 ildə idxal və ixracın artım sürətinə nəzər salsaq görərik ik, bu illər ərzində idxal 5,5 dəfə, ixrac isə 12 dəfədən çox artmışdır. Qeyd edək ki, idxalın və xüsusilə ixracın xüsusi çəkisinin belə sürətlə artması xarici ticarət dövriyyəsinin də 10 dəfəyə yaxın artmasına gətirib çıxarmışdır. İxracın həcminin idxala nisbətən daha sürətlə artması ixracın strukturunda neft və neft məhsullarının xüsusi çəkisinin artması ilə əlaqədar olmuşdur.

Xarici ticarətin inkişafının dinamikasının və meyllərinin kompleks tədqiqində ixrac-idxal əməliyyatlarının coğrafi strukturunun araşdırılması xüsusi maraq doğurur. Xarici ticarətin, xüsusilə ixracın coğrafiyasına əsasən xarici ticarət əlaqələrinin prioritet istiqamətləri, dövlətin digər ölkələrlə siyasi-iqtisadi münasibətləri və xarici iqtisadi siyasəti haqqında mülahizələr irəli sürmək mümkün olur. Aşağıda tərtib olunmuş cədvəldə Azərbaycanın xarici ticarət əlaqələrinin coğrafi strukturuna nəzər yetirək:

**Cədvəl 2**

**1992-2010-cu illərdə Azərbaycanın MDB və uzaq xarici ölkələrlə xarici ticarət dövriyyəsi**

| İllər | Ticarət dövriyyəsi | | Ticarət dövriyyəsi, faizlə | |
|---|---|---|---|---|
| | MDB ölkələri ilə | Uzaq xarici ölkələrlə | MDB ölkələri ilə | Uzaq xarici ölkələrlə |
| 1992 | 1337 | 1087 | 55 | 45 |
| 1993 | 762 | 592 | 56 | 44 |
| 1994 | 760 | 671 | 53 | 47 |
| 1995 | 445 | 769 | 39 | 61 |
| 1996 | 630 | 962 | 40 | 60 |
| 1997 | 729 | 847 | 46 | 54 |
| 1998 | 637 | 1046 | 38 | 62 |
| 1999 | 535 | 1430 | 27 | 73 |
| 2000 | 611 | 2306 | 21 | 79 |
| 2001 | 668 | 3077 | 18 | 82 |
| 2002 | 894 | 2939 | 23 | 77 |
| 2003 | 1184 | 4034 | 23 | 77 |
| 2004 | 1815 | 5316 | 25 | 75 |
| 2005 | 2354 | 6204 | 27 | 73 |
| 2006 | 2693 | 8945 | 23 | 77 |
| 2007 | 2598 | 9173 | 22 | 78 |
| 2008 | 3417 | 51508 | 6 | 94 |
| 2009 | 2964 | 17859 | 14 | 86 |
| 2010 | 4034 | 23925 | 14 | 86 |

**Qeyd***:* Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl məlumatlarının təhlili göstərir ki, 1992-ci ildə ticarət dövriyyəsinin 55%-i MDB ölkələri, 45%-i isə Uzaq xarici ölkələrlə aparılırdı. Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsi 2010-cu ildə ticarət dövriyyəsində MDB ölkələrinin xüsusi çəkisinin 55%-dən 14%-ə düşməsinə və Uzaq xarici ölkələrin xüsusi çəkisinin isə 86%-ə qədər artmasına gətirib çıxarmışdır. Azərbaycan Respublikasının idxal və ixracının ümumi həcmində ayrı-ayrı ölkə qrupları ilə idxal və ixracın xüsusi çəkisi də dəyişmişdir. Müstəqilliyin ilk illərində dünyanın 71 ölkəsi ilə Azərbaycanın ticarət əlaqələri mövcud idisə, 2010-cu ildə bu rəqəm 152-yə çatmışdır ki, bunun da 10-u MDB ölkələri, 142-si isə uzaq xarici ölkə qrupları ilə olmuşdur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, son 20 il ərzində ölkəmizin idxal və ixracında ölkə qruplarının xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə dəyişmişdir.

Araşdırmalar göstərir ki, 1992-ci ildən 2010-cu ilə qədər olan dövr ərzində Azərbaycanın idxalında MDB və Uzaq xarici ölkələr qrupunda əks istiqamətdə təqribən 100 faizlik dəyişiklik baş vermişdir. Azərbaycanın idxalında son illərdə əsas tərəfdaşların xüsusi çəkisində və tutduğu yerdə də müəyyən dəyişikliklər baş vermişdir. Statistik məlumatların təhlili göstərir ki, Azərbaycanın idxalında Rusiya 1994-2001-ci illər istisna olmaqla 1991-2010-cu illər ərzində daim 1-ci yeri tutmuşdur. Azərbaycanın idxalında Böyük Britaniya 2004-2006-cı illərdə (3 il) 2-ci yeri tutmasına baxmayaraq sonralar geriləmiş və hazırda 10 ölkə içərisində 6-cı yerlə kifayətlənmişdir. Azərbaycanın idxalında əsas tərəfdaşların xüsusi çəkisinə nəzər saldıqda məlum olur ki, 1991-ci ildə idxalın 90%-ə qədəri 3 MDB respublikası ilə (Rusiya, Ukrayna və Qazaxstan) olmuşdur. Həmin il Türkiyə idxalda cəmi 0,1% xüsusi çəkiyə malik olmuşdur. Lakin sonralar Ümummilli liderimiz ikinci dəfə hakimiyyətə gəldikdən sonra qardaş Türkiyə ilə iqtisadi əlaqələr getdikcə genişlənmişdir. Elə bunun nəticəsidir ki, Türkiyə Azərbaycanın idxalında hətta 1996-cı ildə 1-ci yerə çıxmışdır. Sonrakı illərdə Türkiyə 3-4-cü yerləri tutmuş və 2007-ci ildən başlayaraq bu günə kimi idxalda 2-ci yeri tutaraq bu yerdə sabitləşmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyə və İranla qarşılıqlı siyasi, iqtisadi və mədəni əlaqələr formalaşmağa başlamışdır. Beləliklə, əgər 1991-ci ildə Azərbaycan idxalında Türkiyə və İranın payı müvafiq olaraq 0,09% və 1,4% təşkil edirdisə, bu rəqəmlər artaraq 1996-cı ildə Türkiyədə idxal 22,5%, ixrac 6,2%, İranla idxal əlaqələri isə 1996-cı ildə 6,9%, ixrac əlaqələri isə 35,8%-ə qədər qalxmışdır. Lakin Azərbaycanın Uzaq xarici ölkələrlə iqtisadi əlaqələri genişləndikcə qonşu İran və qardaş Türkiyə ilə iqtisadi əlaqələr zəifləməyə başlamışdır. Bütövlükdə 2010-cu ildə Azərbaycanın ticarət dövriyyəsində Türkiyə 7-ci,

İran İslam Respublikası isə 22-ci yerdədir. İndi Türkiyə Azərbaycanın idxalında 2-ci yeri, ixracında isə yalnız 22-ci yeri tutur. Halbuki 2005-ci ildə 4-cü yerdə idi. Qeyd etmək lazımdır ki, müstəqillik elan edildikdən sonra ilk vaxtlarda iki ölkə arasındakı münasibətlər kifayət qədər səmərəli deyildi. Türkiyə ilə geniş əlaqələr 1992-ci il 14 may hadisələrindən sonra qurulmağa başladı. Həmin dövrdə Türkiyənin Baş naziri Süleyman Dəmirəlin, Xarici İşlər naziri Hikmət Çətinin, Türkiyə Böyük Millət Məclisi deputatlarının Azərbaycana səfərləri iki ölkə arasındakı çoxsahəli münasibətlərin yeni əsasda inkişafı üçün zəmin yaratdı. Azərbaycanla Türkiyə arasında bir çox hüquqi sənədlər imzalandı. İki ölkə arasında əlaqələr heç də yalnız iqtisadi sahədə deyil, sosial, siyasi, mədəni, idman sferalarnıda da dinamik inkişaf edir. “Bir millət – iki dövlət” konsepsiyasından çıxış etsək ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur. İkitərəfli əlaqələrin inkişafı hər iki tərəf üçün obyektiv zərurətdir. Elə bu səbəbdən də dövlətlərarası münasibətlərin beynəlxalq hüquq normalarına uyğun olaraq qarşılıqlı hörmət və bərabərlik prinsipləri əsasında inkişafı qarşısıalınmaz təbii prosesdir.

Azərbaycan-Türkiyə iqtisadi-ticarət əlaqələrinə nəzər saldıqda məlum olur ki, əgər 1996, 1997, 1998-ci illərdə Azərbaycanın idxal üzrə əsas partnyoru Türkiyə idisə, 1999-cu ildə Türkiyə bu siyahıda Rusiyadan sonra 2-ci yerdə idi. Türkiyənin Azərbaycandan idxal etdiyi başlıca mallar arasında neft, dizel, benzin, polietilen mallar, xam dəri, pambıq, külçə, alüminium, müxtəlif bitkilər, şəkər çuğunduru və s. adlarını çəkmək olar. Azərbaycanın Türkiyədən idxal etdiyi mallar sırasında isə başlıca olaraq toyuq əti, yumurta, un, meyvə-tərəvəz, kərə yağları, marqarin, şəkər, şirniyyat məmulatları, sabun və yuyucu vasitələr, plastikdən hazırlanmış müxtəlif məhsullar, plastik və alüminium profillər, kağız, tekstil və toxuculuq məmulatları, mərmər, tikinti daşı, inşaat vasitələri, mebel, elektronika məhsulları – soyuducular, qızdırıcılar, nəqliyyat vasitələri, hesablayıcı maşınlar, telefon və rabitə vasitələri, radio və televiziya yayımı cihazları, elektrik kabelləri və ötürücülər, minik avtomobilləri və digər məhsulların adını çəkmək olar.

Göründüyü kimi, adları çəkilən məhsullar iqtisadiyyatın demək olar ki, bütün sahələrində istifadə olunur və bu bir daha iki ölkə arasında ənənəvi ticarət münasibətlərinin əhəmiyyətini göstərir. Azərbaycan və Türkiyə arasında idxal-ixrac əməliyyatları aşağıdakı cədvəldə öz əksini tapmışdır:

**Cədvəl 3.**

## Azərbaycan və Türkiyə arasında idxal-ixrac əməliyyatları

| İllər | Ticarət dövriyyəsi | İ d x a l | | | İ x r a c | | | Saldo |
|---|---|---|---|---|---|---|---|---|
| | | Min. ABŞ dolları | Xüsusi çəkisi faizlə | Yeri | Min. ABŞ dolları | Xüsusi çəkisi faizlə | Yeri | |
| 1992 | 212724 | 87107 | 9,24 | 3 | 125617 | 8,46 | 5 | 38510 |
| 1995 | 166955 | 140510 | 21,05 | 1 | 26445 | 4,15 | 9 | -114065 |
| 1996 | 255307 | 216258 | 22,51 | 1 | 39049 | 6,19 | 4 | -177209 |
| 1998 | 355527 | 219689 | 20,4 | 1 | 135837,8 | 22,4 | 1 | -83851 |
| 2000 | 233484 | 128503 | 11,0 | 2 | 104981,0 | 6,0 | 4 | -23522 |
| 2001 | 215549 | 148167 | 10,4 | 3 | 67381,6 | 2,9 | 7 | -80785 |
| 2002 | 239616 | 156219 | 9,4 | 2 | 83396,5 | 3,8 | 6 | -72822 |
| 2003 | 302168 | 195131,5 | 7,4 | 3 | 107036,0 | 4,1 | 6 | -88096 |
| 2004 | 407588 | 224995,1 | 6,4 | 4 | 182592,8 | 5,1 | 5 | -42402 |
| 2005 | 588961 | 313001,6 | 7,4 | 4 | 275959,3 | 6,3 | 4 | -37043 |
| 2006 | 773185 | 385040,2 | 7,3 | 4 | 388144,8 | 6,1 | 3 | 3105 |
| 2007 | 1680896 | 624572,5 | 10,9 | 2 | 1056323,0 | 17,4 | 1 | 431750 |
| 2008 | 1433200 | 807043,1 | 11,3 | 2 | 626157,2 | 1,3 | 12 | -180886 |
| 2009 | 1014604 | 906984,2 | 14,8 | 2 | 107620,0 | 0,7 | 22 | -799364 |
| 2010 | 942336 | 771442,4 | 11,7 | 2 | 170893,7 | 0,8 | 22 | -600548 |

**Qeyd:** Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır

Təhlil göstərir ki, Azərbaycanın idxalında Türkiyə önəmli yer tutaraq hətta 1995-1998-ci illərdə 1-ci yerdə olmuş, sonralar isə getdikcə zəifləyərək öz yerini Rusiyaya vermişdir. Son beş ildə Türkiyə 2-ci yerdədir.[1] Azərbaycan Respublikasının xarici ölkələrə ixrac etdiyi mallar içərisində Türkiyənin xüsusi çəkisi o qədər də böyük deyil. Əgər 1998 və 2007-ci illəri nəzərə almasaq (həmin illərdə Azərbaycanın ixracında Türkiyə birinci yerdə olmuşdur) qalan illərdə Türkiyənin xüsusi çəkis getdikcə zəifləmiş və 2009-2010-cu illərdə 22-ci yerlə nəticələnmişdir. Bütün bunlar isə Azərbaycanın idxalında Türkiyənin payının artması və ixracında azalması son nəticədə ticarət dövriyyəsində mənfi saldonun çoxalmasına gətirib çıxarmışdır. Təhlil göstərir ki, Azərbaycan-Türkiyə ticarət balansında bu rəqəm 2009-cu ildə 799 milyon 364 min, 2010-cu ildə isə 600 milyon 548 min ABŞ dolları məbləğində mənfi saldo təşkil etmişdir. Azərbaycan-Türkiyə iqtisadi əlaqələrində nəqliyyat sisteminin inkişafı da mühüm rol oynayır. Avrasiya ölkələri arasında mərkəzi mövqe tutan Azərbaycanın əlverişli nəqliyyat sisteminə malik olması dünya

[1] Geniş məlumat üçün bax: Azərbaycanın xarici ticarəti. Statistik məcmuə. Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşriyyatı, 2009, s. 8-18; Azərbaycanın xarici ticarəti. Statistik məcmuə. Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşriyyatı, 2011, s. 19-28.

ölkələrinin marağına uyğun olan səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə əlverişli zəmin yaradır. Tarixi "İpək Yolu"nun bərpası TASİS və TRASEKA proqramlarının həyata keçirilməsi üçün respublikanın nəqliyyat sistemi mühüm əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, Avrasiya ölkələri ilə Azərbaycanın iqtisadi əlaqələri getdikcə genişlənməkdədir. Bu ölkələr içərisində Türkiyənin xüsusi yeri vardır. Azərbaycanın Türkiyə ilə qonşuluq mövqeyində olması və iqtisadi əlaqələrin səmərəli həyata keçirilməsi üçün bir neçə istiqamətlərdə nəqliyyat sistemlərinin fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Bu fəsildə göstərilir ki, Türkiyə ilə 11 km. uzunluğunda sərhəddin olmasına baxmayaraq qədim zamanlardan hər iki ölkə tarixi köklərlə bir-birinə bağlıdır. Ümumi ərazisi 780 min kv.km olan Türkiyənin zəngin təbii resurslara malik olması xarici iqtisadi əlaqələrə təkan verə bilən istehsal sahələrinin inkişafına ciddi təsir göstərmişdir. Ərazidə zəngin filiz yataqlarının olması, əlverişli təbii iqlim şəraitinin mövcudluğu ilin bütün fəsillərində istehsal sahələrinin ritmik fəaliyyətinə imkan verir. Sənayenin bir çox sahələrinin: metallurgiya, maşınqayırma, kimya, yüngül və yeyinti sənaye sahələrinin inkişafı daxili tələbatı ödəməklə yanaşı xarici iqtisadi əlaqələrin geniş miqyaslı inkişafına təsir göstərmişdir. Başqa ölkələrlə olduğuna nisbətən Türkiyənin Azərbaycanla əlaqələri daha aktivdir. Qədim tarixi əlaqələrə malik olan hər iki ölkənin iqtisadi əlaqələrinin inkişafına təsir göstərən bir sıra mühüm amillər vardır:

1. Bakı-Naxçıvan-Türkiyə birbaşa iqtisadi əlaqələrin inkişafı üçün əlverişli nəqliyyat sisteminə malik olması;

2. Hər iki ölkənin iqtisadi inkişafına müsbət təsir göstərə bilən təbii resursların zənginliyi;

3. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran Türkiyə ölkələrarası əlverişli nəqliyyat kommunikasiyalarının olması;

4. Türkiyənin müasir şəraitdə iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayan çoxsahəli istehsal quruluşuna malik olması və s.

Göstərilən bu amillər hazırki şəraitdə də Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin əsasını təşkil edir. Yaxın gələcəkdə "İpək Yolu"nun fəaliyyəti Türkiyə-Azərbaycan əlaqələrində dönüm nöqtəsi olacaqdır. Avtomobil və dəmir yollarının beynəlxalq normalara uyğun qurulması yük axınlarının intensivləşdirilməsinə təsir göstərəcəkdir. Eyni zamanda Bakı-Sədərək-Dilucu-İqdır, Bakı-Astara-Təbriz-Maku avtomobil yollarından istifadə etməklə yüklərin səmərəli daşınmasını təmin etmək olar. Həmçinin Türkiyədən dəniz nəqliyyatı vasitəsilə Xəzər dənizinə çıxış yolunun olması hər iki ölkə arasında dəniz nəqliyyatından istifadə etməklə yüklərin daha səmərəli yollarla daşınması təmin olunacaqdır.

Dissertasiya işinin **“Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri”** adlanan üçüncü fəslində əvvəlki fəsillərdə aparılmış təhlil materiallarına əsaslanmaqla iki dövlət arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi istiqamətləri verilir və yollar göstərilir. Qeyd edilir ki, Azərbaycan artıq 22 ildir ki, müstəqillik yollarında inamla irəliləyir və bu müddət ərzində Türkiyə ölkəmizlə bütün sahələrdə əlaqələr yaratmış, müxtəlif xarakterli layihələrdə iştirak etmişdir. Azərbaycanda investisiya baxımından cəlbedici olan bir çox böyük həcmli layihələr mövcuddur. Bu layihələr yalnız yanacaq-energetika sahəsini deyil, iqtisadiyyatın digər perspektiv sahələrini də əhatə edir. Azərbaycan iqtisadiyyatına investisiya qoyan ölkələr içərisində Türkiyə birinci yerdə gedir. Son 10 ildə Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyduğu investisiyaların həcmi beş dəfəyə yaxın artmışdır. Belə ki, əgər 2000-ci ildə Azərbaycan iqtisadiyyatına Türkiyə tərəfindən cəmi 31,6 mln. ABŞ dolları həcmində investisiya qoyulmuşdusa, bu rəqəm 2007-ci ildə 5 dəfəyə yaxın artmışdır. İki ölkə arasında iqtisadi əlaqələrin inkişafında bank-kredit sisteminin böyük rolu vardır. Bu baxımdan Azərbaycanda Ziraət Bankının ortaqlığı ilə yaradılmış “Azər-Türk Bank” öncül yer tutur. “Azər-Türk Bank” iki ölkə arasında iqtisadi münasibətlərin genişləndirilməsində mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, “Azər-Türk Bank”dan başqa daha sonralar yaradılmış Baybank, Royalbank, KoçBank, EgeBank, CiBank kimi türk kapitalı banklar ölkələrimiz arasında maliyyə-kredit əlaqələrinin genişlənməsinə şərait yaratmışdır. Ölkələr arasında iqtisadi əlaqələrin perspektiv inkişafı bilavasitə bank münasibətlərinin yenidən qurulması və yeni maliyyə institutlarının yaradılması ilə əlaqədardır. Məhz bu baxımdan da hesab edirik ki, iki ölkə arasında xarici ticarət əlaqələri və müştərək layihələrin yerinə yetirilməsi üçün Azərbaycan-Türkiyə Xarici Ticarət Bankının yaradılması məqsədəuyğun olardı. Bu fəsildə həmçinin Transanadolu (TANAP) layihəsinin həyata keçirilməsi perspektivləri tədqiq edilir və proqnozlar verilir. Burada qeyd edilir ki, Azərbaycanın zəngin qaz ehtiyatına malik dövlət olmasını təsdiqləyən TANAP kimi layihələr ona görə əhəmiyyətlidir ki, kəmərin çəkilişində maliyyə dəstəyi daha artıq olan ölkəmizin dünyanın enerji və yanacaq satışı bazarında böyük nüfuza malik, qitə dövlətləri üçün sabit və mühüm enerji mənbəyi olması təsdiqini tapır. Azərbaycanın 2025-ci ilədək hasil etməyi planlaşdırdığı 50 milyard kubometr qazın böyük hissəsini ixrac etmək üçün Transanadolu ən əlverişli variantdır. Ölkə prezidenti İlham Əliyevin vurğuladığı kimi belə mühüm layihələri həyata keçirən Azərbaycan Avropada etibarlı qaz təminatçısına çevrilməkdədir. Ümumiyyətlə, əvvəlki fəsillərdə tədqiq olunan xarici ticarət

iqtisadi əlaqələrin bu və ya digər inkişaf məsələlərinə əsaslanaraq qeyd etmək lazımdır ki, ölkələrimizin yerli xüsusiyyətlərini və iqtisadi inkişaf istiqamətlərini nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, müasir dövrdə xarici ticarət əlaqələri aşağıdakı istiqamətlərdə təkmilləşdirilməlidir:

- iki ölkə arasında idxal və ixracın strukturunun təkmilləşdirilməsi;
- xarici investisiyaların ölkəyə axınının intensivləşdirilməsi yolu ilə iqtisadiyyatın bütün sahələrində texnoloji yeniləşmənin həyata keçirilməsi və istehsal-texnoloji proseslərin modernləşdirilməsi.

Müasir dövrdə xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsinə sistemli yanaşma nöqteyi-nəzərindən onu xarakterizə edən başlıca amillərin (iqtisadi, istehsal-texnoloji, sosial-ictimai və hüquqi) tətbiq edilməsi zəruri məsələlərdəndir. Azərbaycanın gələcək xarici ticarət konsepsiyasının hazırlanmasında qeyd olunan amillərin ticarət-iqtisadi əlaqələrin səviyyəsinə təsiri nəzərə alınaraq bir sıra zəruri tədbirlər nəzərdə tutulmuşdur. Belə ki, həmin proqramlarda ixrac və idxalın strukturunun təkmilləşdirilməsi, ixracyönümlü istehsalın inkişaf etdirilməsi, bazar subyektlərinin rəqabət qabiliyyətliliyinin artırılması, daxili bazarın məqsədyönlü şəkildə qorunması, ölkənin idxal asılılığının aradan qaldırılması, dövlət tərəfindən ixracın stimullaşdırılması kimi məsələlər geniş əksini tapmışdır.

Burada həmçinin qeyd edilir ki, xarici ticarət əlaqələrinin inkişafı gömrük sisteminin təkmilləşdirilməsindən də asılıdır. Gömrük işinin müasir standartların tələblərinə çatdırılması sahəsində aparılan kadr islahatları, işçilərin ixtisas səviyyələrinin yüksəldilməsi, xidmət intizamının möhkəmləndirilməsi, gömrük nəzarəti formalarının müasir tələblərə uyğunlaşdırılması, daha əlverişli tarif dərəcələrinin tətbiqi, gömrük sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması, yeni texniki-nəzarət vasitələrinin tətbiqi, gömrük strukturlarının modernləşdirilməsi də xarici ticarət əlaqələrinin ilbəil artırılmasında əhəmiyyətli rol oynamışdır.

Bu gün Azərbaycan Respublikasında gömrük sisteminin əsas məqsədi strateji dövlət maraqlarının təmin edilməsi, rəqabət qabiliyyətliliyinin stimullaşdırılması əsasında ölkənin xarici iqtisadi fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasından ibarətdir.[1] Azərbaycanla Türkiyə arasında iqtisadiyyatın bütün sahələri, o cümlədən kənd təsərrüfatı və sənaye sahələri arasında əlaqələr daha əhatəlidir. Türkiyə Azərbaycanla iqtisadiyyatın digər sahələri ilə yanaşı, aqrar sektorda da əlaqələri

---

[1] Əliyev A. Gömrük işi və dünya iqtisadiyyatının inkişafı. Bakı: "Çaşıoğlu" nəşriyyatı, 2003, 247 s.

genişləndirməyi planlaşdırır. Hazırda Azərbaycan ilə Türkiyə arasında kənd təsərrüfatı məhsulları üzrə illik ticarət dövriyyəsi mövcud potensialı tam əks etdirmir. İki ölkə arasında yeni layihələr əsasən kənd təsərrüfatı sahəsində araşdırmalar, toxumçuluq, heyvandarlıq, elmi-aqrar araşdırmalar və digər sahələrə aid ola bilər. Türkiyə dünyada ən iri alkoloid istehsalçılarındandır və bu sahədə Azərbaycana müəyyən kömək edə bilər. Quşçuluq sahəsində xüsusilə böyük əməkdaşlıq imkanları var. Azərbaycan İnvestisiya Şirkəti Türkiyənin "Halus Tavuk" şirkəti ilə birgə müəssisənin yaradılması, mövcud texnologiyanın təkmilləşdirilməsi və yeni avadanlıqların alınmasına yönələn layihə həyata keçirilməlidir. Bu layihədə Azərbaycan tərəfinin ivestisiyaları 12 mln. manat təşkil edəcək. Türkiyə ilə sənaye sahəsində ən geniş miqyaslı əlaqələr vardır. Bunlar Azərbaycan sənayesinin inkişafına öz müsbət təsirini göstərir. Azərbaycanda istehsal olunan ÜDM-da sənayenin xüsusi çəkisi artıq 60 faizi keçib.

Tədqiqat işində habelə iki ölkə arasında tikinti sektorunda da əlaqələrin getdikcə genişlənməsi diqqətə çatdırılır. Qeyd edilir ki, tikinti sektorunda sıx əlaqələr əsasında həm tikinti materiallarının qarşılıqlı idxal və ixracı, həm də türk şirkətlərinin Azərbaycanda və bəzi hallarda Azərbaycan şirkətlərinin Türkiyədə tikinti laqihələrini həyata keçirməsindən ibarətdir.

Dissertasiya işinin "Nəticə" hissəsində tədqiqat zamanı əldə edilmiş əsas nəticələr, irəli sürülən təklif və tövsiyyələr konkret şəkildə şərh edilmişdir.

Dissertasiyanın işlənməsi müddətində mövzu üzrə iddiaçının aşağıdakı elmi məqalələri çap olunmuşdur:

1. Azərbaycan-Türkiyə iqtisadi əlaqələri // AETKTİTİ-nun Elmi əsərləri, 2008, № 5, s.197-199

2. Milli iqtisadiyyatın inkişafı və xarici iqtisadi əlaqələr / Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (ali məktəblərarası elmi məqalələr məcmuəsi). Bakı: Mütərcim, 2009, № 6, s. 329-332

3. Böhran dönəmində Türkiyə bank sektorunun zəif yönləri və bank sektorunda antiböhran proqramı / "Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və Azərbaycan modeli" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: Azərbaycan, 2010, s. 352-356

4. Перспективы Азербайджано-Турецких отношений в экономической сфере // Известия НАНА, Экономическая серия, 2011, № 1, с. 161-168

5. Развитие Азербайджано-Турецких отношений в экономической сфере / Сборник научных трудов, Инфо-да, Санкт-Петербург, 2011, № 14, с. 297-299

6. Характеристика развития банковского сектора Азербайджана и Турции в контексте глобального финансововго кризиса / СП бгуэф. Сборник докладов, том II, Санкт-Петербург, 2011, с. 128-131

7. Küresel mali kriz döneminde Azerbaycan bankacılıq sisteminin durumunun analizi / Nizami'den Yunus Emre'ye, Kemal Atatürk'ten Haydar Aliyev'e uzanan sevgi ve barış yolu sempozyumu. Ankara: BRC Basım Matbaçılık, 2011, s. 157-164

8. Azərbaycan-Türkiyə iqtisadi münasibətlərinə strateji ortaqlıq aspektindən baxış // AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2012, №3, s. 234-238

9. Azərbaycan-Türkiyə iqtisadi münasibətlərində enerji layihələrin rolu // BDU-nun Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2012, № 1 (29), s. 270-274

10. Развитие Азербайджано-Турецких отношений в экономической сфере / Материалы научно-практической конференция. Системный анализ в экономике – 2012, Москва: ЦЭМИ РАН, 2012, с. 78-79

11. Азербайджано-Турецкие экономические отношения: современное развитие и перспективы развития // «Экономика и управление», Санкт-Петербург, 2013, № 1 (87), с. 42-45

12. Nəqliyyat Azərbaycan-Türkiyə əlaqələrinin genişləndirilməsində mühüm amildir // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və Humanitar elmlər seriyası, 2013, № 1, s. 273-27

**Джаббар Хафиз оглы Мусаев**

# Направления развития и пути совершенствования экономических отношений между Азербайджанской Республикой и Турецкой Республикой

## Резюме

Диссертация состоит из введения, трех глав, заключения и включает в себя список литературы.

Во вступительной части представляется актуальность темы, уровень исследования проблемы, цели и задачи, объекты, теоретические и методологические основы предметы, а также научная новизна исследования.

В первой главе приводится история создания внешних экономических связей, раскрывается мнение экономистов и ученых в этой области относительно существующих теорий, указываются факторы, непосредственно оказывающие влияние на внешнеэкономические отношения и исследуется всемирная практика их регулирования.

Во второй главе «Оценка текущей ситуации экономических отношений между Азербайджаном и Турцией» показаны основные тенденции и перспективы развития внешнеэкономических отношений Азербайджанской Республики в условиях рыночной экономики, анализируется и оценивается текущий уровень экономических отношений между двумя странами на основе статистических материалов, а также исследуется роль транспортного сектора в расширении экономических связей.

Третья глава называется «Пути усовершенствования экономических отношений между Азербайджаном и Турцией». В данной главе анализируются инвестиционные и кредитные отношения между Азербайджанской и Турецкой Республиками, и отмечается особая роль банков в развитии экономики и расширении указанных отношений. Кроме того, определяются перспективы реализации международных проектов между двумя странами, а также указываются направления и пути совершенствования торгово-экономических отношений.

В заключении отражены основные результаты и обобщение темы.

**Jabbar Hafiz oglu Musayev**

## Directions of improvement and enhancement of the economic relations between the Republic of Azerbaijan and the Republic of Turkey

### Summary

Dissertation is consisted of introduction, three chapters, result and the list of literarure.

Introduction presents relevance of the topic, the level of promlem investigation, goals and tasks, objects, teoretical-methodological basics as well as a new approach to the scientific investigation.

In the first chapter we take a look to the historical part of the foreign economic relations, standpoints of economists and scholars in this field regarding existing theories, indicate factors directly influencing on external economic relations and investigate world practices of their regulation.

In the second chapter “Evaluation of current situation of economic relations between Azerbaijan and Turkey”, we show the main principles and development perspectives of the external economic relations of the Republic of Azerbaijan in the field of market economy, analyze and evaluate current level of economic relations between two countries on the basis of statistic materials, as well as investigate the role of the transport sector in the expansion of economic relations.

The third chapter is entitled “Improvement ways of economic relations between Azerbaijan and Turkey”. In this chapter we analyze investment and credit relations between Azerbaijan and Turkey and mention the main role of banks in the development and expansion of these relations. In addition, we define perspectives of international projects realization between two countries, as well as show directions and ways of improvement of trade and economic relations.

In conclusion the main and overall results of the research has been given.

Çapa imzalanmışdır: 16.05.2013
Formatı: 60/84, 1/16
Sifariş № 62
Sayı: 100

*AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.*

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**ДЖАББАР ХАФИЗ ОГЛЫ МУСАЕВ**

# ОСНОВНЫЕ ПУТИ РАЗВИТИЯ И СОВЕРШЕНСТВОВАНИЯ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ДВУСТОРОННИХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ

**Специальность: 5308.01 – Обшая экономика**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени доктора философии по экономик**

**НАХЧЫВАН – 2013**